https://doi.org/10.59849/3006-1342.2025.3.89
UOT 94(479.24)

*Yasin Ətraf oğlu Alməmmədov*
*AMEA Gəncə Bölməsi*
*Kiçik elmi işçi*
*AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı*
*E-mail:* almmmdovyasin@gmail.com
*ORCID:* 0009-0002-1204-7255

# GƏNCƏ ŞƏHƏRİNİN ORTA ƏSR XRİSTİAN ALBAN MÜTƏFƏKKİRLƏRİ VƏ ONLARIN ƏSƏRLƏRİNİN ELMİ-TARİXİ TƏHLİLİ

*XII əsrdə Gəncə şəhərində Alban xristian mütəfəkkirlərinin yetişməsi diqqətçəkici bir tarixi hadisə idi. Bu şəxsiyyətlər yalnız kilsə xadimləri olmaqla kifayətlənməyib, eyni zamanda tarixi xronikalar da yazırdılar. Məqalənin əsas tədqiqat mövzusu məhz bu mütəfəkkirlər, onların kimliyi və yaradıcılığının bölgə tarixçiliyinə gətirdiyi töhfələrdir. Tədqiqat əsnasında Alban xronistlərinin əsərlərinin analitik xüsusiyyətlərinə diqqət yetirilmişdir. Məlum olmuşdur ki, bu əsərlər müəyyən hadisələrdə dəqiq məlumat versələr də, müəlliflərin şəxsi baxış bucaqları və emosional təəssübkeşlikləri nəticəsində bəzi detalların təhrif olunduğu da müşahidə olunur. Bu səbəbdən, əsərlərə birmənalı və sadələşdirilmiş şəkildə yanaşmaq doğru deyil. Alban yazıçılarının yaradıcılığını tam dərk etmək üçün dövrün ümumi siyasi və sosial mənzərəsini nəzərdən keçirmək zəruridir. Eyni zamanda, onların əsərləri yalnız tarixi məlumat mənbəyi kimi deyil, regionun tarixindəki boşluqları doldurmağa imkan verən dəyərli mənbələr olaraq da qiymətləndirilir. Tədqiqat müddətində həm müxtəlif mənbələr, həm də həmin kilsə xadimlərinin öz əsərlərinə müraciət edilmiş, əlavə olaraq bu mütəfəkkirlərin yaradıcılığı fərqli baxış bucaqlarından təhlil olunmuşdur.*

*Açar sözlər:* Gəncə, Qafqaz Albaniyası, Mxitar Qoş, Gəncəli Kirak

## *Giriş*

Gəncə şəhəri tarix boyunca yerləşdiyi coğrafi mövqeyə görə daim diqqət mərkəzində olmuş və xüsusən orta əsrlərdə özünün qızıl dövrünü yaşamışdır. Xüsusilə XI-XIII əsrlər arasında, şəhər yalnız Qafqazın ən varlı və strateji baxımdan ən vacib mərkəzlərindən biri olaraq qəbul edilməklə qalmamış, eyni zamanda Şərqdəki digər böyük şəhərlərlə rəqabətə girmişdir. Bu dövr Gəncə üçün həm hərbi, həm siyasi, həm də mədəni sahələrdə irəliləyişlərin yaşandığı, beynəlxalq əhəmiyyətə malik bir mərkəz halına gəlmişdir. Şəhərin bu cür sürətlə inkişaf etməsində bir neçə əsas amil mühüm rol oynamışdır. Gəncənin yerləşdiyi coğrafi mövqe, şəhərin iqtisadi və strateji əhəmiyyətini daha da artırmışdır. Suvarma üçün əlverişli münbit torpaqlara sahib olan bu şəhər, Qafqaz sıra dağlarının yaxınlığında, həm Asiya, həm də Avropanın kəsişməsində yerləşirdi. Ticarət yollarının üzərində yerləşməsi də şəhəri, bölgənin ən mühüm ticarət mərkəzlərindən birinə çevirmişdi. Şəhərin bu cür strateji və coğrafi mövqeyi və əlverişli şəraiti orta əsrlərdə müxtəlif xalqların diqqətini hər zaman cəlb etmişdir. X əsrin sonlarında, Şəddadilərin şəhərin strateji mövqeyini daha da möhkəmləndirməsi, şəhərin sürətlə inkişafına səbəb olmuşdur. Bu müddət ərzində yalnız iqtisadi baxımdan irəliləyişlər baş verməmiş, həm də sənətkarlıq və ticarət inkişaf etmiş, şəhərin ətraf bölgələr ilə iqtisadi əlaqələri möhkəmlənmişdir. Bu cür mədəni inkişaflar, Gəncənin özünün əhəmiyyətini yalnız qafqazda deyil, həmçinin şərq aləmində də təsdiqləmişdi. Təsadüfi deyildir ki, Şeyx Nizami öz əsərlərində Gəncəni qədim Babil şəhəri ilə müqayisə edərək şəhəri "*Mənim Babilim*" deyə adlandırmışdır. Gəncənin mədəni irsi, bu

dövrün önəmli abidələri ilə öz təsdiqini tapır. Qədim Gəncə qalası və onun XI əsrdə inşa edilən qala qapıları, şəhərin keçmiş mədəniyyətinin və möhtəşəm memarlığının mükəmməl nümunələrindəndir. Digər mühüm abidələrə isə, alban məbədlərini, dini mədrəsələri, bazar meydanını və s. aid edə bilərik. Gəncə yalnız fiziki inkişafı ilə deyil, həm də zəngin mədəniyyəti ilə ön plana çıxmışdır. Burada, Əbülula Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi və Qivami Müttərizi kimi böyük mütəfəkkirlər yetişmiş və mədəni fəaliyyətləri ilə şəhərin intellektual zənginliyini artırmışdılar.

XI–XIII əsrlərdə Gəncə yalnız müsəlman əhalinin deyil, həmçinin xristianların da sıx məskunlaşdığı və dini fəaliyyətlərini həyata keçirdiyi əsas mərkəzlərdən birinə çevrilmişdi. Bu dövrdə yerli Alban əhalisi inkişafın yeni mərhələsinə qədəm qoymuş, şəhər isə həm dini, həm də intellektual həyatın mərkəzində önəmli rol oynamışdır. Elə buna görə də, həmin dövrün ən nüfuzlu xristian tarixçiləri məhz Gəncədə dünyaya gəlmiş və əsərlərində XI–XIII əsrlərin siyasi və ictimai mənzərəsini əks etdirmişlər. Lakin, Bu şəxslər yalnız tarixçi kimi deyil, həmçinin ictimai, siyasi və dini sahələrdə də dövrün həyatına əhəmiyyətli təsir göstərmişdilər. Qədim Gəncə şəhərində doğulmuş bu tarixçilərə Mxitar Qoş, Gəncəli Kirak və Vardan Arevelçi misal göstərmək olar. Bundan başqa, Gəncə elmi mühitinə bağlı və bölgədə formalaşmış digər mütəfəkkirlər, məsələn, Tovuzlu Ovannes və Əyrivəngli Mxitar da dövrün tarixi biliklər sisteminin inkişafına öz əvəzsiz töhfələrini vermişdilər.

Mxitar Qoş, XII əsrdə yəni 1120-ci illərdə, bəzi fikirlərə görə isə 1130-cu ildə Gəncə şəhərində doğulmuşdur. İlk təhsilini Gəncədə almış və şəhərdə 1139-cu ildə baş vermiş böyük zəlzələdən sonra təhsilini davam etdirmək məqsədilə Kilikiyadakı müqəddəs *"Lev monastrına"* üz tutmuşdur. Təhsilini tamamladıqdan sonra isə bir müddət Ərzurumda fəaliyyət göstərmiş və burada yerli xristian feodallarla əlaqə qurmuşdu. Təəccüblü deyil ki, sonralar onun əsərləri Kilikiya xristianları tərəfindən qorunmuş, günümüzədək gəlib çatmışdır. O, 1184-cü ildə "*Gədik monastırında*" fəaliyyətinə davam etmişdir. Bu gün toponimlərin təkrarlanması səbəbindən Gədik monastırının Alban toponimikasında *"Kayen"* deyilən Qərbi Azərbaycan ərazisində yerləşdiyi hesab olunur. Bu monastır Ağstafa çayının sağ sahili istiqamətində yerləşməkdə idi. Ömrünün sonlarına yaxın, Mxitar Qoş Gədəbəyin Başkənd kəndindən qərbdə, qədim Tovuz vilayətinin cənubunda *"Qoşavəng*" yaxud "*Yeni Gədik*" monastırının əsasını qoymuşdu. O, qalan həyatını, təqribən 1213-cü ilədək burada yaşamış və bir çox Alban mütəfəkkirlərinə müəllimlik etmişdir. Mxitar Qoşun yaradıcılığından bugünəcən 3 əsas əsəri dövrümüzə gəlib çatmışdır: "*Törə bitik*"(Qanunnamə), "*Alban tarixi*" və "*Nağıllar toplusu*". Onun yaradıcılığının ən maraqlı tərəfi odur ki, daha qədim, ilkin əlyazmaları qıpçaq türk dilindədir. Hətta bu əlyazmalar erməni-qıpçaq dili adı altında ayrıca bir tədqiqat qolunun yaranmasına əsas vermişdir. Əsərlərin tədqiqatçılarının mülahizələrindən biri belədir ki, həmin dövrün albanlarının doğma dili elə qıpçaq dili olmuşdur. "*Törə bitik*" əsərinin dili orta əsr Azərbaycan dili ilə müxtəlif eyniliklər təşkil edir. Bunlara misal kimi, orta əsr oğuzlarından fərqli olaraq *"ə"* hərfinin daha sıxlıqla istifadəsi, digər qıpçaqlardan fərqli olaraq *"x"* hərfinin daha çox istifadəsi, müəyyən sözlərin eyniliyini və s. göstərə bilərik. Həmçinin bu əsərin dili türk-xristian terminologiyasının mükəmməl ifadə zənginliyini nümayiş etdirir. Mxitar Qoşun "*Alban tarixi*" kitabı əsasən Alban patriarxlarının siyahısını verir və bu əsər, Musa Kağankatlının Alban tarixi kitabının davamı kimi yazılmışdır.

Yeni Gədik monastırında fəaliyyət göstərmiş və bu məktəbin fəaliyyətinə töhfə vermiş ikinci yerli mütəfəkkir Vanakan Vardapet kimi tanınan Tovuzlu (Tavuşetsi) Ovannesdir. Ovannes 1181-ci ildə Tovuz şəhərində, yaxud ətrafındakı Utikdə doğulmuşdur. O, Yeni Gədik monastırında Mxitar Qoşdan təhsil almış, bir müddət orada dərs demiş və aldığı bilikləri tələbələrinə ötürmüşdür. Tovuzlu Ovannes, 1220-1230-cu illərdə doğulduğu bölgəyə qayıdaraq Tovuz regionunda "*Xoranaşat"* monastırının əsasını qoymuşdu. Lakin, onun

fəaliyyətinə monqol yürüşləri ciddi təsir göstərmişdi. Belə ki, monqolların inkişaf etmiş şəhərlərdə dağıntılar törətməsi və mədəniyyət nümunələrini məhv etməsi səbəbinə görə o, bir çox dəyərli əsərlərini xərac qarşılığında qorumağa məcbur olmuşdu. Tovuzlu Ovannes, 1236-cı ildə şagirdləri ilə birlikdə əsir düşmüş və yalnız bir neçə ay sonra Qaq qalasının sakinlərinin pul yığaraq azadolunma haqqını ödəməsi nəticəsində azadlığa çıxa bilmişdi. Tələbələri Gəncəli Kirak və Vardanın verdiyi məlumata görə onun tarixi hadisələrə də həsr olunmuş əsəri olmuş, lakin bu əsər günümüzə gəlib çatmamış və sonrakı dövrlərdə yaşamış olan tarixçilər onun həmin tarix kitabına mənbə kimi istinad vermişdilər [9]. Bundan başqa, Ovannesin sual-cavab formatında *"erotematik toplusu*" ciddi mədəni abidə hesab olunur, eləcə də o, "*İncilin şərhinə dair*" kimi bir neçə dini kitabların müəllifidir. Onun qıpçaq dilində Vanakan Vardapet imzası ilə bəzi əsərləri günümüzəcən gəlib çatmışdır. Dövrünün böyük din xadimlərindən biri olan Tovuzlu Ovannes, 1251-ci ildə vəfat etmiş və öz monastırının kasıblar qəbirstanlığında dəfn olunmuşdur.

Gəncə şəhərində doğulmuş digər böyük xristian alban mütəfəkkirlərindən biridə Gəncəli Kirakdır (Kirakos Qanzaketsi). Onun 1200-cü ildə (bəzi mənbələrdə isə 1203-cü ildə) doğulduğu ehtimal olunur. O, ilkin təhsilini *"Yeni Gədik"* monastırında almış, daha sonra "*Xoranaşat*" monastırında təhsilinə davam etmişdir. 1236-cı ildə Gəncəli Kirakda müəllimi Tovuzlu Ovanneslə birlikdə monqollar tərəfindən əsir götürülmüş və daha sonra pul müqabilində azad edilmişdir. O, 1251-ci ildə Ovannes öldükdən sonra Yeni Gədik monastırına rəhbərlik etmişdir. Dini mövzulu şeirlərin müəllifi kimi tanınan Kirakos Qanzaketsi həm də məşhur "*Tarix*" əsərinin yaradıcısıdır. Onun bu kitab üzərində çalışarkən əsas istinad etdiyi mənbələrdən biri, digər yerli tarixçilərdə olduğu kimi, Musa Kağankatlının "*Alban Tarixi*" əsəri olmuşdur. Bununla yanaşı, o dövrdə Yeni Gədikdə formalaşaraq elmi nüfuz qazanan Gəncə tarix məktəbinin nümayəndələrinin fikir və məlumatlarına da geniş şəkildə müraciət etdiyi ehtimal olunur. Gəncəli Kirakın qələmə aldığı bu əsərdə Albaniya və Xaçın bölgəsinə dair ayrıca, kifayət qədər geniş bir bölmənin mövcud olduğu diqqəti cəlb edir. Müəllif, burada Albaniyanın müxtəlif dövrlərdə fəaliyyət göstərmiş katolikosları, knyazları və həmin dövrün dini həyatına təsir edən şəxslər haqqında danışmaqla yanaşı, ölkə ərazisində inşa edilən kilsələr və fərqli məbədlər barədə də mühüm qeydlər təqdim edir. Xüsusilə *"Amaras məbədi"* ilə bağlı verdiyi məlumatlar, bu dini ocağın tarixi əhəmiyyətini ön plana çıxarır. Digər tərəfdən, Kirak əsərində monqolların Azərbaycana yönəltdiyi hücumların geniş təsvirini də təqdim edir və həmin dövr üçün onların həm daxili, həm də xarici siyasətindən bəhs edir [3, s. 147]. Beləliklə, bu əsər yalnız dini və memarlıq aspektləri deyil, həm də siyasi proseslərin gedişi haqqında dəyərli məlumatlar təqdim edən çoxşaxəli bir mənbə kimi çıxış edir. Maraqlıdır ki, Gəncəli Kirakın ilk əlyazmalarının Türk-Qıpçaq dilində qələmə alındığı da məlumdur və bu fakt da onun dil mühitinin çoxşaxəli olduğunu göstərir. Gəncəli Kirak 1271-ci ildə, 71 yaşında Atropatena hökmdarlarının yay iqamətgahı və Azərbaycanın ən qədim dini mədəniyyət mərkəzlərindən biri olan qədim Qazaka şəhərində vəfat etmişdir.

Öz dövrünün böyük alban tarixçi və din xadimlərindən biridə, Vardan Araveltsidir. O, 1198-ci ildə Gəncə şəhərində doğulmuşdur. Yeni Gədik monastrında Mxitar Qoş və Vanakan Vardapetin nəzarəti altında təhsil almış, Xoranaşat monastırında isə təhsilini daha da təkmilləşdirmişdir. O, Vardapet (*Başrahib*) titulu aldıqdan sonra fəaliyətini daha da genişləndirmiş, 1235-ci ildə Müqəddəs Andrey kilsəsinin əsasını qoymuşdur. 1255-ci ildə isə Qərbi Azərbaycanın Vedibasar ərazisinə düşən bölgədə Xor məktəbini yaratmışdır. Onun, əsas əsəri "*Ümumi Tarix*" kitabıdır. Kitabın son fəsilləri Qafqaza monqol yürüşləri və sonrakı hadisələrə həsr olunmuşdur [7].

Gəncəbasar bölgəsində dünyaya gəlmiş digər görkəmli mütəfəkkirlərdən biri də Əyrivəngli Mxitardır. Onun həyatı barədə məlumatlar olduqca məhduddur, lakin məlum olan faktlardan biri də budur ki, Mxitar, Vardan Arevellinin əsasını qoyduğu Xor Virap

monastırında dərs demiş və dini təhsil mühitində müəyyən nüfuz qazanmışdır. 1279-cu ildə isə Göyçə gölünün sahilində yerləşən Əyrivəng monastırına rəhbərlik etməyə başlaması onun dini-elmi fəaliyyətinin zirvəsi kimi qiymətləndirilə bilər. O, 1289-cu ildən etibarən dünyəvi həyata arxa çevirmiş, dağlıq ərazidə zahidliyə çəkilərək ömrünün sonunu tənhalıq içərisində keçirmişdir. Əyrivəngli Mxitar *"Çarentir", "Xronika", "Gəncəran"* kimi əsərlərin müəllifi kimi tanınır [8]. Xüsusilə *"Xronika"* əsərində Qafqaz Albaniyasının tarixi, Alban xristianlarının siyasi-mədəni inkişafı və XIII əsrin sonlarınadək baş vermiş mühüm hadisələrin ardıcıllığı diqqətlə təsvir olunur.

Ümumilikdə, Gəncə alban mühitindən çıxmış alimlərin içərisində, Mxitar Qoşun təsiri altında yetişən çoxsaylı mütəfəkkirlərə rast gəlinməkdədir. Bu zəngin intellektual mühitdən Xaçınlı İsrail, Aknirli Qriqor və Ərzincanlı Ovannes kimi müəllifləri nümunə göstərmək mümkündür. Adları çəkilən Gəncəli və Gəncəbasarlı xristian alban müəlliflərinin əsərləri regionun tarixi proseslərini izləmək, hadisələrin xristian perspektivindən şərhini öyrənmək, həmçinin Qafqaz albanlarının mədəni-etnik kimliyini araşdırmaq baxımından olduqca dəyərli mənbələr kimi qiymətləndirilir. Təəssüflə qeyd etmək lazımdır ki, XVII əsrdən başlayaraq bu müəlliflərin bir çox əsərləri erməni kilsəsinin redaktəsinə məruz qalmış, nəticədə ilkin məlumatların bir hissəsi dəyişdirilmiş və mətnlər orijinal formadan xeyli uzaqlaşdırılmışdır. Mxitar Qoşdan başlayaraq, Əyrivəngli Mxitaradək Alban müəlliflərinin yazdıqları tarixi əsərlər və xronikalar yalnız müsəlman tarixçiliyinin diqqətindən kənarda qalan dövrün xristian mənzərəsini ortaya çıxarmır, həm də tarixi proseslərin bütövlüyünü təmin edən əlavə məlumatlarla son dərəcə əhəmiyyətli boşluqları doldurur. Bu mənbələrdən daha dəqiq olanları Mxitar Qoş və Gəncəli Kirakın əsərləridir. Əhatəlilik və genişlik baxımından isə Böyük Vardan kimi tanınan Arevelli Vardanın *"Ümumi Tarix"* adlı əsəri xüsusi olaraq seçilir.

"*Ümumi Tarix*" əsərində kifayət qədər böyük təhriflər vardır. Üstəlik, müəllifin müsəlmanlara qarşı müəyyən düşmənçilik notlarını əks etdirən ifadələrlə qarşılaşmaq da mümkündür. Məsələn, Şəddadilər sülaləsinin tarixinə toxunarkən, Vardan Şəddadi hakimiyyətinin yaranmasını Pərisuz bölgəsində - yəni Göyçə ətrafından Şəmkirədək uzanan ərazidə, guya "*Məm*" adlı bir qadının üç oğlu ilə qəfil ortaya çıxması kimi təsəvvür etdirir. Onun təsvirinə görə, bu qadın Pərisuz çarı Qriqora əsir düşür, oğulları isə bu münasibətdən istifadə edərək iki qalaya yiyələnir, Gəncə əmiri Əl-Əzizlə qohumluq qurur və daha sonra onu aradan götürüb şəhərə sahib olurlar. Əslində, mənbədə Məm kimi təqdim edilən şəxsin qadın yox, Şəddadilər sülaləsinin banisi Məhəmməd ibn Şəddad olduğu tarixən məlumdur. O, 955-ci ildə Vaspurakan ərazisində vəfat etmiş və bundan əvvəl üç il ərzində Dəbil şəhərində əmirlik etmişdir [4]. Vardan onun, həm böyük, həm də ortancıl oğulların adlarını və ardıcıllığını səhv saldığı kimi, Gəncədə hakimiyyətdə olmuş əmiri də yanlış qeyd edir. Bununla belə, onun qeydləri müəyyən yeni ehtimalları gündəmə gətirir. Belə görünür ki, Məhəmməd ibn Şəddadın oğullarından hər hansı biri həqiqətən Alban Aranşahları ilə nikah diplomatiyası ilə qohumluq qurmuş ola bilər. Xüsusilə qeyd edilməlidir ki, həmin dövrlərdə xristian əsilli qadınlar müsəlman əmirlərinin saraylarına çox vaxt cariyə statusu ilə daxil olur, rəsmi nikaha alınmadan saray diplomatiyasında istifadə edilə bilirdilər. Məsələn, Səlcuq sultanı Alp Arslan Qafqaz mənşəli xristian ailələrindən bir qızı alaraq Arran hökmdarı şah III Fəzl Şəddadiyə hədiyyə etmişdi. Buradan irəli gələn digər ehtimal isə Gəncə şəhərinin həmin dövr üçün məşhur Salari əmiri, Əli Tazinin də yerli xristian zadəganları ilə ailə bağlarına malik olmasıdır. Aydındır ki, müsəlman əmirləri regional münasibətləri sabit saxlamaq üçün belə qohumluqları məharətlə qururdular.

Vardanın hadisələrin davamı ilə bağlı yazdığına əsasən, Şəddadilərdən Fəzlun Pərisuz çarı Filippini əsir götürərək *Şotk və Şaşuaş* qalalarını ələ keçirir [4]. Bu məlumatlar müsəlman mənbələri ilə də uyğunluq təşkil edir. Həmçinin bildirilir ki, Fəzlun Xaçın knyazlığının və Girdman bölgəsinin xristian mülklərinə də müdaxilə etmişdir. Əsərdə ən diqqətçəkən məqam

isə Gəncənin həmin müddətdə baş Alban feodalının kimliyi ilə bağlı xəbərdir. O, aranşahlar sülaləsindən olan Hamamın oğlu Qagikdir. Digər xristian feodalları kimi, onun da mülkləri Fəzlun tərəfindən zəbt edilmişdir. Bununla belə, vəziyyəti tam fəlakət kimi təsvir etmək düzgün olmazdı. Böyük ehtimalla Fəzlun bu feodalların mülklərinə hücum edir, qarət törədir, lakin onları tamamilə məhv etmirdi. Çünki sonrakı əsrlərdə də həmin nəsillərin varlığına dair məlumatlara rast gəlinir. Bununla yanaşı, bir reallığı da danmaq olmaz ki, Şəddadilər sülaləsinin yürüdüyü siyasət yerli xristian toplumuna ciddi zərbə vurmuş, onların siyasi və sosial qüvvələrini zəiflətmişdi.

XII əsrin sonlarınadək Arevelli Vardanın qələmə aldığı məlumatlarda Gəncə və ümumilikdə Alban xristian icmasının həyatı ilə bağlı xüsusi fərqləndirici detallar yer almır. Əvəzində, Mxitar Qoş və Gəncəli Kirakosun əsərlərində 1139-cu il xüsusilə ön plana çıxır. Bunun iki əsas səbəbi var: həmin ildə yeni Alban katolikosu seçilmiş və Gəncə şəhərini dağıdıcı zəlzələ sarsıtmışdır. Mxitar Qoşun yazdıqlarından aydın olur ki, Tovuzda keçirilən bu katolikos seçkilərində çoxsaylı vardapetlər, arxiyepiskoplar və yepiskoplar iştirak etmiş, müəllif onların adlarını bir-bir sadalamağı vacib bilmişdir. Bu adlar içərisində Gəncə arxiyepiskopu Qriqorun adı xüsusilə diqqətləri özünə çəkir [2, s. 244]. Seçkidən qısa müddət sonra bölgədə baş verən hadisələr fonunda, mənbələrdə *“Katolikos sığınacağı”* adı ilə məşhur olan qalada kilsə iyerarxiyasında vəzifə bölgüsü aparılmış, dini mərasimlər icra edilmişdir. Eyni qaynaqlarda rast gəlinən başqa maraqlı ad isə türkmənşəli mənşəyə malik olan Alban şəxsiyyəti Tokakerdir. Bu ad həm Gəncəli Kirakosun, həm də Böyük Vardanın yazılarında qeyd olunur [4]. Lakin sonuncu müəllif Tokakerin oğlu, vardapet Qriqor barədə məlumat vermir və onu daha erkən dövr hadisələri ilə əlaqələndirir. Gəncə zəlzələsindən sonra siyasi vəziyyət də gərginləşmişdir. Aran Atabəyi Qara Sunquurun ölümündən sonra onun Gəncəyə təyin etdiyi əmir Qutluq üsyan qaldırmış, ardınca Katolikos sığınacağı və Karapet sığınacağı adlanan qalaları zəbt edib qarət etmişdir [2, s. 246]. Mxitar Qoşun yazdığı bu hadisə Əyrivəngli Mxitar tərəfindən müəyyən dərəcədə fərqli təhrif edilmişdi. O, qeyd edir ki, guya Çolçandar adlı şəxs 1214-cü ildə Xaçın bölgəsindəki qalaları hiyləgərliklə ələ keçirmişdir [10]. Eyni zamanda Mxitar Qoş, Arran albanlarının tarixinə toxunarkən Çiləbörd hakimi Tavğan adını qeyd edir; bu adın da türkmənşəli olması diqqətdən yayınmır[2, s. 249]. Onun qələmə aldığı Alban tarixi XII əsrin ictimai-siyasi hadisələrinin araşdırılmasında uzun müddət mühüm elmi istinad nöqtəsi kimi istifadə edilmişdir.

XIII əsrdə monqolların yürüşləri ilə bağlı ən etibarlı yazılı məlumatları əsasən bölgədə yaşayan xristian müəlliflərin əsərlərində tapmaq mümkündür. Həm Vardan Areveltsi, həm də Gəncəli Kirakos həmin dövrdə baş verən hadisələri mümkün qədər qərəzsiz üslubda qeyd etməyə çalışmışlar. Tədqiqatçıların böyük əksəriyyəti 1220-ci illərdən etibarən bölgədə müşahidə edilən siyasi qarışıqlıq və etnik toqquşmaların diqqət çəkəcək dərəcədə artdığını xüsusi vurğulayır. Alban tarixçiləri isə monqollardan öncə qıpçaq tayfalarının bölgəyə daxil olmasını təsadüfi hesab etməyərək, bu proseslərin bir-biri ilə sıx bağlı olduğunu bildirirlər. Əslində, həmin hadisələrdən qısa müddət əvvəl monqollarla qıpçaqlar Dəşti-Qıpçaq adlanan ərazilərdə qarşı-qarşıya gəlmişdilər. Maraqlıdır ki, Kirak da, Vardan da qıpçaqları müəyyən mənbələrdə hun (*xon*) etnonimi ilə eyniləşdirirlər [1, s. 161]. Hər iki alban müəllif yerli əhalinin yürüşlərdən çəkdiyi əzabları, Cəlaləddin Xarəzminin monqolların ilk hücumunu dəf etməsini və sonrakı beşillik hakimiyyəti təxminən oxşar şəkildə təsvir edir. 1235-ci il isə Gəncə tarixində xüsusilə ağır və faciəli bir dönəm kimi xatırlanır. Kirakın yazdıqlarına görə, şəhər camaatı hələ hücumdan əvvəl qara suya batıb çıxan bir ağac gördüklərini danışır və bunun yaxınlaşan fəlakətin rəmzi kimi yozulduğunu bildirirdilər [6]. Monqollar şəhərin təslim olmaq niyyətində olmadığını anlayınca, gecə-gündüz mancanaqlarla daş yağdıraraq qala divarlarını dağıtmağa başlayırlar. Dəhşət içində qalan gəncəlilərdən bəziləri öz mülkləri ilə birlikdə özlərini də oda yaxır, bəziləri isə düşmənin əlinə heç nə keçməsin deyə yalnız

əmlaklarını yandırmaqla kifayətlənirdilər. Şəhərdən qurtulanların taleyi də müxtəlif olmuşdur: silahlanan bir qisim adam divardakı yarıqdan qaçaraq mühasirəni yardığı halda, digərləri dağlara üz tutmuşdu; monqollar isə yalnız qiymətli əşyaların gizləndiyi yerləri öyrənmək üçün bəzi sakinləri, yəni *"qaragruh"* deyilən şəxsləri sağ saxlayırdılar [1, s. 163]. Gəncəli Kirak, öz qeydlərində monqolların nə qadınlara, nə də körpələrə rəhm etdiyini yazdığı halda, Vardan Areveltsi isə əsərlərində yalnız uşaqların və qadınların bağışlandığını qeyd edirdi [5]. Bu fərq, dövrün xaotik mənzərəsini daha da aydın göstərir.

Kirak daha sonra əsir düşdüyü dövrdə yaşadıqlarını da təfərrüatlı şəkildə təsvir edir. Onun yazdıqlarına görə, Ovannes Tavuşetsi (Vardapet Vanakan) və digər tələbələrlə birlikdə Molar noyon adlı bir monqol rəisinin hüzuruna aparılmış, Şəmkir əmiri Bəhramın qaçması ilə bağlı onlardan sorğu-sual alınmışdı [6]. Ardınca Ovannes müəyyən məbləğ qarşılığında azad edilsə də, Molar noyonun guya katiblərə ehtiyacı olduğu iddia edilərək tələbələr, xüsusilə də Kirakos, yanında saxlanılmışdı. Müəllifin verdiyi məlumata görə, onlar Molardan xəbərsiz bir vaxtda gizlicə qaçmağa nail olmuşdular, lakin bu məlumatın nə dərəcədə etibarlı olduğu sual doğurur. Monqolların Qarabağ ərazisindəki sonrakı fəaliyyətləri barədə yazarkən Kirak, Xaçın knyazı Həsən Cəlal Dövlənin monqollarla razılıq əldə etməklə öz torpaq və mülklərini necə qoruduğunu da qeyd edir. Yürüşlər səngidikdən az sonra Həsən Cəlal Gəncəsər monastırında yeni bir kilsə inşasına başlamışdı. Bundan sonra müəllif monqol (tatar) əhalisinin xarici görünüşü, yaşayış tərzi və danışıq dili barədə ümumi müşahidələrini bölüşür. Əyrivəngli Mxitar da daxil olmaqla hər üç orta əsr müəllifi monqolların Şimali Azərbaycanda - qədim Ağvan torpaqlarında məskunlaşdıqlarını, əraziləri, qəsrləri, şəhərləri və müxtəlif mülkləri öz aralarında istədikləri kimi bölüşdürdüklərini qeyd edir. Onların, yarım köçəri həyat sürərək qış aylarında Muğan düzündə, yayda isə sərin dağlıq sahələrdə məskən saldıqları xüsusilə vurğulanır.

Monqol yürüşləri dövründə, təxminən 1242-ci ilədək Azərbaycanın idarəçiliyi bir zamanlar Çingiz xanın mühafizə dəstəsinə daxil olmuş sunit qəbiləsindən Çormağun Noyonun əlində cəmlənmişdi. Gəncəli Kirak onun xristian din xadimləri ilə münasibətini də işıqlandırır. Məlumata görə, Alban katolikosu Nerses Çormağunun həyat yoldaşı Eltina xatunun qəbulunda olmuş və ölkədə sərbəst fəaliyyət göstərməsini təmin edən "el-tamğa" adlı rəsmi sənəd almışdı. Qəbul mərasimi, təsadüfən, Eltina xatunla Çormağunun oğlu Bora Noyonun Qutun Noyonun qızı ilə evlənməsi münasibətilə keçirilən toy vaxtına düşdüyü üçün qonaqlarla məşğul olmaq Eltinanın qardaşları Sadək ağa və Qorquza həvalə edilmişdi [6]. Bora Noyon daha sonra Xaçın knyazı Həsən Cəlalın qızı Ruzukanla da ailə quraraq siyasi bağlarını gücləndirmişdi. Çormağun Noyonun qızı Esukanın isə gürcü hökmdarı VII Davidlə evləndirilməsi həmin dövrün mürəkkəb diplomatik münasibətlərinin miqyasını əks etdirir.

Alban müəlliflərin verdiyi məlumatlara nəzər saldıqda, hadisələrin ümumi mənzərəsini təsəvvür etmək mümkün olur və bu tarixi fon Azərbaycanın orta əsrlər tarixinin daha aydın anlaşılmasına şərait yaradır. Xilafət dövründə olduğu kimi, Səlcuqlular zamanında da ölkədə idarəçilik sistemi olduqca qarışıq və bir-birinə bağlı xarakter daşıyırdı; coğrafi bölgülərdən çox, feodal münasibətlərinə əsaslanan bir quruluş formalaşmışdı. Başqa sözlə, müsəlman əmirləri müəyyən tabeçilik pillələri və mülk bölgüləri əsasında feodal hakimiyyəti qurmuşdular. Bu ərazilərdə bəzən bir neçə əmirliyin sərhədləri daxilində - müsəlman hökmdarlara tabe olan, lakin öz müstəqil idarəçilik mexanizmini qoruyub saxlayan xristian feodal strukturu da fəaliyyət göstərirdi. Bu sistem şəhərləri, qalaları və müxtəlif mülkləri öz orbitinə alırdı. Xristian knyazlıqlar öz hakimiyyət sərhədləri daxilində vassallara malik idilər və həmin bölgələrdə vardapetlər, katolikos və yepiskoplar kimi dini şəxslər müxtəlif səviyyələrdə fəaliyyət göstərirdilər. Bu feodal-dini quruluş, müəyyən dəyişikliklərlə olsa da, monqol imperiyası dövründə də uzun müddət mövcudiyyətini qorumağa davam etmişdi. Lakin zaman keçdikcə alban knyazlıqları dağıldıqca, bu sistem də tədricən əriməyə başladı.

Bu dövrdə, yalnız bəzi monastır və kilsə tikililəri əvvəlki dövrdən qalan son yadigarlar kimi öz fəaliyyətlərini çətinliklə də olsa davam etdirə bildilər. Monqol yürüşlərindən sonra bölgədə hakimiyyət strukturlarının böyük hissəsi süquta uğramışdı. Nəticədə, bölgədə sağ qalan yeganə feodal knyazlıq, *"Xaçın knyazlığı"* və bir neçə nüfuzlu feodal aristokrat ailəsi oldu.

*Nəticə*

Tədqiqat zamanı aydın olur ki, XII əsr Gəncəsində əhalinin nəinki müsəlman, həmçinin xristian qismində də elmi-mədəni tərəqqi baş vermişdir. Xristian müəlliflərin arasında eynilə müsəlman mütəfəkkirlərdə olduğu kimi nəzm ustaları da olmuşdur. Xristian mütəfəkkirlərin doğulduğu və fəaliyyət göstərdiyi dövrlər də eynilə digər mütəfəkkirlər kimi XII əsrin birinci yarısından - XIII əsrin ortalarınacan davam edir. Bu məqalədə, qafqaz albanlarının ictimai siyasi həyatdakı aktiv fəaliyyətini, həmçinin müsəlman dünyası ilə qarşılıqlı münasibətlərini, ortaq problemlərini, konfliktlərini izləmək mümkün olur. Yerli alban tarixçilərinin qoyduğu yazılı irs, hadisələrin ümumi mənzərəsində yaranan boşluqları doldurmaq baxımından mühüm əhəmiyyət daşıyır və bu sayədə dövrün tarixi proseslərini daha geniş miqyasda izləmək mümkün olur. Lakin aparılan araşdırmalar göstərir ki, həmin mənbələrə sərt şəkildə etibar etmək hər zaman düzgün nəticə vermir. Müxtəlif siyasi, dini və sosial amillər səbəbilə müəlliflərin təsvirlərində subyektiv yanaşmalar özünü büruzə verə bilər. Buna görə də bu məlumatlardan istifadə edərkən mənbəyə tənqidi baxış tətbiq etmək, faktları müqayisə süzgəcindən keçirmək və ehtiyatla emal etmək zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Azərbaycan Universiteti Nəşriyyatı, Bakı - 1989, 327 s.
2. Moisey Kalankatuklu: Albaniya Tarixi, Mxitar Qoş: Alban Səlnaməsi; Bakı - Elm - 1993, 270 s.
3. Süleyman Əliyarlı: Azərbaycan Tarixi Üzrə Qaynaqlar. Bakı - Çıraq, 2007. 400 s.
4. http://www.vostlit.info/Texts/rus11/Vardan/frametext3.htm
5. http://www.vostlit.info/Texts/rus11/Vardan/frametext4.htm
6. http://www.vostlit.info/Texts/rus8/Gandzakeci/frametext4.htm
7. https://www.pravenc.ru/text/154119.html
8. https://www.pravenc.ru/text/2564510.html
9. https://www.pravenc.ru/text/154041.html
10. http://www.vostlit.info/Texts/rus11/Mhitar/frametext2.htm

УДК 94(479.24)

*Ясин Атраф оглы Алмаммедов*
*Гянджинское Отделение НАНА*

СРЕДНЕВЕКОВЫЕ ХРИСТИАНСКИЕ АЛБАНСКИЕ МЫСЛИТЕЛИ ГЯНДЖИ И НАУЧНО-ИСТОРИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ИХ ПРОИЗВЕДЕНИЙ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, Кавказская Албания, Мхитар Гош, Киракос Гандзакеци

В статье также рассматривается влияние христианских албанских мыслителей на формирование культурного и религиозного ландшафта региона. Особое внимание уделяется их роли в сохранении и передаче знаний, а также в развитии письменной традиции на территории Кавказа. Анализируются способы, с помощью которых эти

мыслители взаимодействовали с соседними культурами и религиями, что способствовало обогащению местной исторической и духовной мысли.

Кроме того, исследование подчеркивает важность междисциплинарного подхода к изучению произведений албанских хронистов, включающего исторический, филологический и культурологический анализ. Это позволяет глубже понять сложные взаимосвязи между текстами и контекстом их создания, выявить скрытые смыслы и оценить влияние внешних факторов на историческую интерпретацию.

В заключение подчеркивается, что творчество христианских албанских мыслителей XII века представляет собой уникальный источник для изучения истории и культуры региона, а критический анализ их трудов необходим для формирования объективной картины прошлого. Их наследие продолжает оставаться важным предметом исследований и вносит значительный вклад в современное понимание исторической идентичности Кавказа.

UDC 94(479.24)

*Yasin Atraf Almammedov*
*Ganja Branch of ANAS*

MEDIEVAL CHRISTIAN ALBANIAN THINKERS OF GANJA AND
A SCHOLARLY-HISTORICAL ANALYSIS OF THEIR WORKS
*SUMMARY*

*Keywords:* Ganja, Caucasian Albania, Mkhitar Gosh, Kirakos Gandzaketsi

The emergence of Christian Alban thinkers in the city of Ganja in XII century was a notable historical phenomenon. These individuals were not confined to ecclesiastical roles but also authored historical chronicles. This study focuses on their identities, intellectual contributions, and the impact of their works on regional historiography. Particular attention is given to the analytical features of the Alban chroniclers' writings. While their works provide accurate accounts of certain events, some details reflect the authors' personal perspectives and emotional biases, indicating the need for a critical approach. Understanding their contributions requires contextualization within the broader political, social, and cultural landscape of the period. Moreover, their writings are valued not only as historical sources but also for filling historiographical gaps in the region. The study consulted multiple sources, including the authors' own texts, and analyzed their works from various perspectives to highlight both their scholarly and historical significance.

***Daxil oldu: 14.11.2025-ci il***